**UOT 327; 930.22**

# İRAN VƏ RUSİYANIN BEYNƏLXALQ MƏSƏLƏLƏRDƏ ƏMƏKDAŞLIĞI

**Əlimusa İBRAHİMOV***

***Açar sözlər:*** *İran, islam, postsovet məkanı, Rusiya, Qərb*

## *XÜLASƏ*

Məqalədə beynəlxalq məsələlər üzrə İran-Rusiya əməkdaşlığının əsas istiqamətləri nəzərdən keçirilir. Müəllif iki dövlət ətrafında ümumi geosiyasi mənzərəni araşdırır, Moskva və Tehranın xarici siyasətinin əsas prinsiplərini izah edir. İran və Rusiyanın postsovet ölkələri ilə münasibətlərində baş verən dəyişikliklərə xüsusi diqqət yetirilir.

Rusiya xarici münasibətlərində beynəlxalq sistemə böyük əhəmiyyət verir. Qərb dövlətlərinin əsas oyunçu olduğu beynəlxalq mühit avropalıların və amerikalıların müəyyənləşdirdiyi normalara uyğundur. Digər tərəfdən, Rusiyanın beynəlxalq sistemə baxışlarındakı hər hansı bir dəyişiklik bu ölkənin maraqlarının yenidən müəyyən olunmasına, rəqib və müttəfiqlərin siyahısının dəyişdirilməsinə və Rusiyanın İranla münasibətlərində dəyişikliklərə səbəb ola bilər.

1980-ci illərin sonundan 1990-cı illərin ortalarına qədər Rusiya siyasətçiləri Qərbə müsbət münasibət bəsləyirdilər və mövcud beynəlxalq sistemdən razı idilər. Onların fikrincə, Rusiya beynəlxalq təşkilatlarına üzv olmaq və Qərblə qarşıdurmadan çəkinmək vasitəsilə qabaqcıl Qərb texnologiyalarından istifadə edərək iqtisadi gücünü bərpa etməyə başlamalı idi. Bu baxımdan Qərb tərəfdaş, İran isə Rusiyanın cənub sərhədləri boyunca İslami təhdid mərkəzi kimi qiymətləndirilirdi. Bu dövrdə Rusiya Federasiyasının gündəmi əsasən Avropa və ABŞ ölkələri ilə əlaqələrin inkişafı idi, Moskva üçün İran İslam Respublikası ilə əlaqələr xüsusi əhəmiyyət daşımırdı. Balkan böhranından sonra və Rusiyada millətçilik dalğasının artması ilə Qərb yönümlü düşüncənin əksinə olaraq, müstəqil xarici siyasət yürüdülməsinə zərurət yarandı və İranla münasibətlər yenidən nəzərdən keçirildi (3).

Rusiyanın İranla münasibətləri Yevgeniy Primakov xarici işlər naziri təyin edildikdən sonra xüsusilə fəal şəkildə inkişaf etməyə başladı. Primakovun doktrinası, Rusiyanın regiondakı özünəməxsus geosiyasi və tarixi mövqeyinə əsaslanırdı. Y.Primakov Rusiyanın ABŞ və digər böyük dövlətlərlə yanaşı öz yerini tapacağı çoxqütblü dünya qurulmasına çalışırdı: "Rusiyanın xarici siyasəti böyük dövlət kimi ölkənin rifahına xidmət edəcəkdir" (1). Onun doktrinası, İran kimi ABŞ-ın siyasətinə qarşı çıxan ölkələrlə daha möhkəm münasibətlərin qurulmasına yönəlmişdi.

Rusiya və İran beynəlxalq və regional səviyyədə iki vacib və nüfuzlu oyunçu kimi qəbul edilir. Rusiya, nüvə enerjisinə sahib olması və Təhlükəsizlik Şurasında veto hüququ sayəsində dünyanın ən böyük dövlətləri kateqoriyasına aiddir. İran İslam Respublikası isə Yaxın Şərq regionunun və İslam dünyasının geosiyasətindəki əhəmiyyətli mövqeyinə görə nüfuzlu regional dövlət hesab olunur. Bu səbəbdən İranla Rusiya arasındakı münasibətlər, xüsusilə hərbi əməkdaşlıq kimi aktual məsələlərdə beynəlxalq təsirə malikdir. Rusiyanın dünyanın bir çox ölkəsi ilə İranla müqayisədə daha geniş əlaqələri mövcud olsa da, Moskvanın bu ölkələrdən heç biri ilə münasibətləri dünya dövlətlərinin diqqətini İranla münasibətlər qədər çəkməmişdir. İranın Rusiya ilə münasibətlərinin beynəlmiləlləşməsinin ən bariz təzahürü hər iki ölkənin nüvə proqramı üzrə əməkdaşlığıdır. 1995-ci ildə bu əməkdaşlığın başlanmasından etibarən Rusiya bu əməkdaşlığa son qoymaq məqsədilə ABŞ və İsrail kimi ölkələr tərəfindən böyük təzyiqə məruz qalmışdır.

**s.e.ü.f.d., Bakı Dövlət Universiteti*
*E-mail: ialimusa@mail.ru*

Digər tərəfdən, hər iki ölkənin regional və beynəlxalq arenada davranışındakı oxşarlıqlar diqqətdən kənarda qala bilməz. Həm Moskva, həm də Tehran son illərdə beynəlxalq düzəndən narahatdırlar və regional səviyyədə iki ölkənin təhlükəsizlik mühiti – beynəlxalq təhlükəsizlik mühitinin tərkib hissəsi kimi Mərkəzi Asiyada, Xəzər dənizində, Qafqazda və hətta Yaxın Şərqdə ortaq xüsusiyyətlərə malikdir. Hər iki ölkə birqütblü beynəlxalq sistemə, NATO-nun şərqə doğru genişlənməsinə, ABŞ-ın raketdən müdafiə sisteminin qonşu bölgələrdə yerləşdirilməsinə və ABŞ-ın Avrasiyada və İran körfəzində hərbi mövcudluğuna qarşı çıxır. Hər iki ölkə terrorizmi və dini fundamentalizmi öz təhlükəsizliyinə təhdid hesab edir. Ümumiyyətlə, bu oxşar mövqelər iki ölkəni bir-birinə daha da yaxınlaşdırır (5).

Lakin son illərdə ABŞ regional dövlətlər sayılan ölkələrin zəifləməsi istiqamətində xarici siyasətini fəallaşdırmışdır. Vaşinqtonun fikrincə, regional dövlətlərin davranışı nə qədər müstəqildirsə, bu, ABŞ-ın maraqları üçün bir o qədər təhlükəlidir. Baltikyanı bölgədə, Mərkəzi Asiyada və Qafqazda Rusiya, Yaxın Şərqdə isə İran regional hegemonluq iddialarına sahibdir, bu səbəbdən ABŞ iki ölkənin nüfuzunun məhdudlaşdırılması və Mərkəzi Avrasiya və Orta Şərqdə yayılmasının qarşısının alınması siyasətini yürüdür. Bu mövzu Moskva ilə Tehranı hər zaman olduğundan daha çox yaxınlaşdırır, çünki ABŞ regionda müdaxiləçi kimi qiymətləndirilir, bu da Moskva və Tehran üçün ortaq təhdidlərin meydana çıxmasını və nəticədə iki ölkənin ABŞ-ın hegemonluğuna qarşı güc balansı yaratmaq məqsədilə qeyri-rəsmi ittifaq axtarışına başlamasını şərtləndirmişdir (2).

Rusiya hökuməti Qərbdən və ABŞ-dan onun daxili işlərinə qarışdığına və beynəlxalq məsələlərdə Moskvanın rolu və mövqeyi ilə hesablaşmamasına görə narazıdır. Daim ABŞ-la toqquşan İran İslam Respublikası Birləşmiş Ştatlara qarşı durmaq məqsədilə əməkdaşlıq üçün münasib tərəfdaş kimi qiymətləndirilir. Rusiya soyuq müharibədən sonrakı birqütblü sistemi tanımır və öz maraqlarına zidd hesab edir. Rusiyanın yanaşmasına görə, mövcud birqütblü sistem müvəqqəti və qeyri-sabit təzahür olub, yeni güc mərkəzlərinin, yəni Avropa Birliyi, Çin, Hindistan və Rusiyanın meydana çıxması ilə problemlərlə qarşılaşacaqdır (4).

Beləliklə, İran və Rusiya ABŞ-a ortaq yanaşma nümayiş etdirir: hər iki ölkə ABŞ-ın qlobal səviyyədə imtiyazlı mövqeyindən narahatdır. İkincisi, hər iki ölkə ABŞ-ın qonşu bölgədəki təsiri barədə mənfi fikirdədir və onu milli təhlükəsizliyinə təhdid kimi qiymətləndirir. İki ölkənin ümumi yanaşma sərgilədiyi digər sahə qloballaşma mövzusudur. Rusiya və İran qloballaşmanın siyasi nəticələrindən eyni dərəcədə narahatdırlar. İran və Rusiyada bəzi siyasətçilər və ekspertlər qloballaşmanı Amerika dəyərlərinin digər cəmiyyətlərdə üstünlük qazanmasına gətirib çıxaracaq fenomen kimi qiymətləndirirlər. Amerika Birləşmiş Ştatları daim hər iki ölkəyə qarşı geniş "yumşaq müharibə" aparmağa çalışır. Bu "yumşaq müharibə"nin nəticələri ilə bağlı narahatlıq iki ölkənin bir sıra ekspertləri və siyasətçiləri arasında yaxınlaşmaya təkan verir.

İran və Rusiya Qərbin insan haqları sahəsində ikili standartlarından narazıdırlar və çoxsaylı açıqlamalarında bu məsələdə Qərbin ikili standartlara sahib olduğunu vurğulayırlar. İki ölkənin Qərbin insan haqları "alət"indən istifadə etməsi ilə bağlı ortaq mövqeyi beynəlxalq birlikdə Rusiya və İranın bir-birinin mövqelərini dəstəkləməsinə gətirib çıxarmışdır. Rusiya həmişə İranla bağlı insan haqlarına dair qətnamələrin əleyhinə səs verir və müvafiq surətdə İran da Rusiyanı dəstəkləyir.

Bundan əlavə, İran və Rusiya Birləşmiş Millətlər Təşkilatında bir-biri ilə sıx əməkdaşlıq edir, mühüm beynəlxalq məsələlərdə daim məsləhətləşirlər. Hər iki ölkə BMT-nin dünya böhranlarının həllində rolunun zəifləməsinə qarşı çıxır. İran və Rusiya terrorizmi bütün təzahürlərində qınayır və terrorizmə, digər yeni qlobal təhdidlərə qarşı mübarizədə BMT-nin rolunun gücləndirilməsini tələb edir.

Beləliklə, müstəqil ölkə kimi İran və dünya dövləti kimi Rusiya beynəlxalq münasibətlər səviyyəsində Mərkəzi Avrasiya və yaxın Şərq bölgələrində ortaq maraqlara malikdir. Hər iki ölkə ABŞ-ın təcavüzkar davranışında dəyişiklik etməsini tələb edirlər. Bu şəraitdə Moskva və Tehran qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi yolları axtarırlar.

İranın dünya ölkələri ilə qarşılıqlı fəaliyyət sahələri xarici əlaqələrin (ikitərəfli, regional və beynəlxalq) bir və ya iki səviyyəsi ilə məhdudlaşır, lakin Rusiya mühüm mövqeyi sayəsində

Tehranın beynəlxalq arenada münasibətlərin hər üç səviyyəsində qarşılıqlı əlaqələrə malik olduğu yeganə ölkədir.

Lakin Rusiya ilə İran arasındakı münasibətlər müxtəlif dövrlərdə eniş-yoxuş yaşasa da, son illərdə ABŞ-ın onların sərhədlərinə yaxınlaşması hər iki ölkəni oxşar təhlükəsizlik problemləri ilə üzləşdirmişdir. Hər iki ölkə ABŞ-ın siyasətinə eyni mövqedən yanaşır və dünyada çoxqütblü düzən yaratmağa çalışır. Tehran və Moskva Mərkəzi Asiya və Qafqaz bölgələrində, Xəzər dənizi, Suriya, İraq və Əfqanıstanda fəal əməkdaşlıq edir və ortaq strateji maraqlara malikdirlər. Əslində beynəlxalq və regional arenada siyasi inteqrasiya ikitərəfli iqtisadi münasibətlərdən daha vacibdir, bu da hər iki ölkənin bəzi rəsmilərinin, xüsusən də İranın qarşı tərəfi özünün strateji müttəfiqi kimi təqdim etməsinə gətirib çıxarmışdır. Qeyd etmək lazımdır ki, İranın Rusiya ilə münasibətləri Tehran rejiminin mövcudluğu üçün müstəsna əhəmiyyət daşıyır və onun İslam ölkələri ilə və ya İraq və Venesuela kimi üçüncü dünya müttəfiqləri ilə olan münasibətləri ilə müqayisə edilə bilməz.

Son otuz ildə Moskva və Tehranın bir-birlərini siyasi tərəfdaş kimi tanıması üçün imkanlar yaranmışdır və zaman keçdikcə qarşılıqlı əməkdaşlıq üçün geniş zəmin formalaşmışdır.

## ƏDƏBİYYAT

**4.** Backer, J.A. Russia in NATO? / The Washington Quarterly, 2002.- Vol.25, No.1, p.183

**5.** Pape, R. A. Soft Balancing against the United States / International security.- 2005.- Vol. ۰۳, No. ۱, pp. 36-37

**6.** Shaffer, S. Partners in Need: The Strategic Relationship of Russia and Iran / Policy Paper; Washington Institute for Near East Policy 2001. №57. P.29. URL: http: // www. Washington institute. Org/ uploads/ Documents/ pubs/PP_57_PARTNERS_IN_NEED.pdf

**7.** Азим Заде, Дж. Анализ характера отношений между Ираном и Россией//Новости,06.10.2014,http:// www. Farsnews. Com/printable. Php?nn= 13930706001474.

**8.** Карами, Д. Смена взгляда России на международную среду и ее влияние на отношения с Ираном /Д. Карами // Оборонная политика, Тегеран, 2003,№ 40-41, с.108

## *РЕЗЮМЕ*

***Алимуса ИБРАГИМОВ***

### *Ирано-российское сотрудничество по международным вопросам*

***Ключевые слова:*** *Иран, ислам, постсоветское пространство, Россия, Запад*

В статье рассматриваются основные направления ирано-российского сотрудничества по международным вопросам. Автор рассматривает общий геополитический ландшафт вокруг двух государств и разъясняет основные принципы внешней политики Москвы и Тегерана. Особое внимание уделяется изменениям, произошедшим в отношениях Ирана и России с постсоветскими странами.

***SUMMARY***

***Alimusa IBRAHIMOV***

***Iranian-Russian Cooperation on International Issues***

***Keywords:*** *Iran, Islam, post-Soviet space, Russia, West*

The article discusses the main directions of Iranian-Russian cooperation on international issues. The author considers the general geopolitical landscape around the two states and explains the main principles of the foreign policy of Moscow and Tehran. Particular attention is paid to the changes that have taken place in the relations of Iran and Russia with the post-Soviet countries.